# YENİ NƏŞRLƏR




AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanmış ***“Nadir Şah Əfşarın fərman və məktubları”*** adlı yeni kitab işıq üzü görüb. Kitaba Azərbaycanın, eləcə də bütün Yaxın Şərqin həm hərb tarixində, həm də siyasi həyatında silinməz iz qoymuş görkəmli dövlət xadimi və böyük fateh Nadir şah Əfşarın fərman və məktublarının tərcüməsi daxil edilmişdir. Azərbaycan dilində nəşr edilən bu sənədlərin böyük bir qismi ilk dəfə müxtəlif əlyazma mənbələrindən seçilərək toplanıb və Əlyazmalar İnstitutunun tanınmış tərcüməçi-mütəxəssisləri: fil. ü.f.d., dos. Əkrəm Bağırov, böyük elmi işçi Hacı Rauf Şeyxzamanlı və ərəbşünas-tədqiqatçı Minəxanım Şahbazova tərəfindən tərcümə edilmişdir.

***




AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmlər doktoru hazırlığı üzrə doktorantı, fil. ü.f.d. Famılə Nəcəfovanın ***“Azərbaycanca-farsca şəkilli lüğət” (فرهنگ مصور آذربایجانی – فارسی)*** adlı yeni kitabı çap olunub. Ölkədə bu formatda ilk Azərbaycanca-farsca lüğət olan nəşr nəfis tərtibatı, həcmi və mövzularının əhatəliliyi baxımından seçilir. Fars dilində söz ehtiyatının zənginləşdirilməsi prosesində kəlmələrin mənasının beyində təsəvvürünün yaradılması və nəticə olaraq anlayıb-qavrama vərdişlərinə nail olmaq məqsədi ilə tərtib olunan 240 səhifəlik şəkilli lüğətə 143 mövzuda 4300 söz, 100-ə yaxın söz birləşməsi və cümlə daxil edilib. Kitabda fars dilində olan sözlərin transkripsiyaları da təqdim edilib ki, bu da əlifbanı bilməyən oxucuların ondan istifadəsini asanlaşdırır. Qeyd edək ki, lüğətin redaktoru AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, rəyçiləri AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Əlyazmaların və əski çap kitablarının tərcüməsi şöbəsinin müdiri, fil. ü.f.d., dos. Əkrəm Bağırov və BDU-nun İran filologiyası kafedrasının dosenti, fil. ü.f. d. Əsmət-xanım Məmmədovadır.

***




AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda ***“Şəmsəddin Saminin həyatı, mühiti və yaradıcılığı”*** adlı monoqrafiya çap olunub. Əlyazmalar İnstitutunun “Multidissiplinar əlyazmaların tədqiqi” şöbə-sinin elmi işçisi Rəna İskəndərlinin müəllifi olduğu kitab Türkiyə mədəniyyətinin Tənzimat dövrünün görkəmli nümayəndəsi: tədqiqatçısı, dilçi, dram və roman müəllifi Şəmsəddin Saminin (1850-1904) elmi-bədii irsinin tədqiqinə həsr olunub. Qeyd edək ki, kitabın elmi redaktorları fil. e.d., prof. Azadə Musabəyli və fil. e.d., prof. Paşa Kərimov, rəyçiləri fil. e.d. Nailə Səmədova və fil. ü.f.d., dos. Əzizağa Nəcəfovdur.




AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin İrs komisiyasının sədri Sonaxanım Hadıyevanın (Sona Xəyal) ***"Qarabağım – sinə dağım"*** adlı kitabı nəşr olunub. Kitabın redaktoru və ön sözün müəllifi institutun "Əlyazmaların və əski çap kitablarının tərcüməsi" şöbəsinin aparıcı elmi işçisi, fil. ü.f.d. Tünzalə Əlizadəqızıdır. Kitabda müəllifin müxtəlif illərdə qələmə alınmış və müxtəlif toplularda çap olunmuş Qarabağ faciəsi və Qarabağ şəhidlərinin qəhrəmanlıqlarından bəhs edən şeirləri, pyesləri, eyni zamanda şəhidlərə həsr olunmuş sənədli hekayələri yer almışdır.

***




AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda ***"Nəcəf bəy Vəzirov – Milli irfana xidmət etmiş nadir sima"*** adlı kitab işıq üzü görüb. Kitabı tərtib edən Əlyazmalar İnstitutunun "Şəxsi arxivlərin tədqiqi" şöbəsinin böyük elmi işçisi Əzizə Ələkbərova, rəyçi fil. ü.e.d. Paşa Kərimov, elmi redaktor və ön sözün müəllifi yazıçı-publisist Mehriban Vəzirdir. Yeni nəşrdə Qarabağ, Şuşa ədəbi mühitinin yetirməsi, Milli teatrın və Azərbaycan dramaturgiyasında ilk faciə əsərinin yaradıcısı Nəcəf bəy Vəzirov haqqında müxtəlif vaxtlarda qəzet və jurnallarda dərc olunmuş məqalələr toplanmışdır.

***




Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2021-ci ili ölkəmizdə Nizami Gəncəvi ili elan etməsi ilə əlaqədar ***"Nizami Gəncəvi – 880"*** adlı biblioqrafiya işıq üzü görüb. Biblioqrafiyanın baş elmi məsləhətçisi və ön sözün müəllifi institutun baş direktoru, akademik Teymur Kərimli, tərtibçisi Biblioqrafiyaşünaslıq şöbəsinin müdiri, fil. ü.e.d. Aybəniz Əliyeva-Kəngərlidir. Yeni nəşrin elmi redaktorları institutun şöbə müdirləri, kitabşünas mütəxəssislər Firəngiz Hüseynova və Qutiyera Cəfərova, sahə redaktoru isə institutun elmi katibi, fil. ü.f.d., dos. Əzizağa Nəcəfovdur. Biblioqrafiyada söz səltənətinin sultanı Nizami Gəncəvinin həyatı və ölməz yaradıcılığı haqqında Azərbaycan və xarici dillərdə nəşr olunmuş kitab və monoqrafiyalar, dahi şairin yaradıcılığının tədqiqinin nəticəsi olan dissertasiyalar, eyni zamanda dövrü mətbuatda dərc edilmiş materiallar haqqında məlumatlar yer alıb. Yeni nəşrdə, həmçinin Nizami yaradıcılığının dünya müstəvisində tədqiqi və ədibin qələmə aldığı əsərlərin dünya ədəbiyyatının inkişafına təsiri barədə materialların təsviri isə müvafiq bölmələrdə öz əksini tapıb.

AMEA Məhəmməd Füzuli adına Əlyamalar İnstitutunun Elmi Şurasının qərarına əsasən çap olunan ***“Əlyazmalar yanmır” (ingilis dilində)*** və ***“Elmi əsərlər”*** jurnallarının növbəti nömrələri çapdan çıxıb










AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda keçirilmiş, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş ***“Nizami Gəncəvi: sələflər və xələflər – Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri”*** mövzusunda elmi-nəzəri konfransın materialları toplu halında nəşr olunub. Topluda Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimlinin “Nizami irsinin öyrənilməsinin əhəmiyyəti”, icraçı direktoru, fil. e.d. Paşa Kərimovun “Səfəvilər dövrü Azərbaycan ədəbiyyatında Nizami təsiri”, şöbə müdiri, fil. e.d., professor Kamandar Şərifovun “Nizaminin Misirdəki əlyazmaları” və digər institut əməkdaşlarının məruzələrinin tezisləri ilə yanaşı, bir sıra Nizamişünas tədqiqatçıların dahi şairin yaradıcılığına, onun fəlsəfi, elmi baxışlarına, humanist düşüncələrinə, əsərlərinə bəstələnən musiqilərə, əlyazma nüsxələrinə və s. dair araşdırmalarının nəticələrini əks etdirən tezislər də yer alıb.

***



AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun “Çap kitablarının tədqiqi” şöbəsinin baş elmi işçisi, tar. e.d., prof. Tahirə Həsənzadənin türk dilindən tərcümə etdiyi ***“Şirvanşahlar yurdu”*** kitabı işıq üzü görüb. Tarixçi Cahangir Zeynal oğlu Nəsirbəyovun müəllifi olduğu bu kitabda Şirvanşahlar yurdundan, vaxtilə Albaniya, Arran və Şirvan deyə anılan “Qafqaz Azərbaycanı”nın tarixindən bəhs olunur. Yeni nəşrin tərtibatçısı və giriş mətninin müəllifi tar. ü.f.d., dos. Tamilla Kərimova-Kocayeva, elmi redaktoru tar. e.d. Tofiq Nəcəflidir.




***

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda ***“Nasirəddin şahın yol qeydləri”*** kitabı işıq üzü görüb. Yeni nəşrin ideya müəllifi tar. ü.f.d., dos. Nigar Gözəlova, tərcümə, ön söz və izahların müəllifi fil. ü.f.d., dos. Əkrəm

Bağırov, elmi redaktoru tar. ü.f. d. Əkbər Nəcəfdir. Kitab Qacarlar sülaləsinin dördüncü hökmdarı olan Nasirəddin şahın ölkədaxili səfərləri ilə yanaşı, hakimiyyətdə olduğu müddətdə Avropaya 3 dəfə səyahət etdiyi zaman öz əli ilə qələmə aldığı və bu gün İran dövlət arxivlərində saxlanılan yol qeydləri-Səyahətnamələrinin Cənubi Qafqaza aid olan hissələrinin tərcüməsindən ibarətdir.

***




***"AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu. Biblioqrafiya (2006-2020)"*** adlı biblioqrafik göstərici nəşr olunub. Göstəricinin tərtibçisi İnstitutun Çap kitabları şöbəsinin müdiri, tar. ü.f. d., dos. Cavid Cəfərov, redaktoru həmin şöbənin baş elmi işçisi, tar. ü.e.d. Tahirə Həsənzadədir. Kitabda Əlyazmalar İnstitutunun alim və mütəxəssislərinin həmin müəs-sisədə işlədiyi dövrdə nəşr fəallığını əks etdirən biblioqrafik məlumatlar toplanılıb. 15 illik (2006-2020) dövrü əhatə edən biblioqrafiyada 567 adda kitabın, 3500-dən artıq məqalə və dissertasiya işinin təsviri əks olunub.

***




AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Məhəmməd ağa Müctəhidzadənin ***"Əsərləri"*** ilk dəfə ayrıca kitab halında çapdan çıxıb. Kitabda elm aləmində təzkirəçi-şair kimi tanınan Məhəmməd ağa Müctəhidzadənin sonsuz məhəbbətlə qələmə aldığı Vətəni - Qarabağın, Azərbaycanın bu dilbər güşəsinin gözəllik və özünəməxsusluqlarını böyük coşqu ilə təsvir və tərənnüm etdiyi sevgi dolu əsərləri oxuculara təqdim olunur. ***"Məhəmməd ağa Müctəhidzadə – Əsərləri"*** adlı kitabın elmi redaktoru Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli, nəşrə hazırlayan və ön sözün müəllifi institutun baş elmi işçisi, fil. ü.e.d. Raqub Kərimov, rəyçiləri müəssisənin icraçı direktoru, fil. ü.e.d. Paşa Kərimov və şöbə müdiri, fil. ü.f.d. Əkrəm Bağırovdur.